Analitik informasiya jurnalı

May - İyun 2015

# Milli Məclis





# Şahmar Mövsümov: "Fondda maliyyə əməliyyatları sahəsindəki bütün müasir texnologiyalardan istifadə edilir"

## Azərbaycan Respublikası Dövlət Neft Fondunun icraçı direktoru Şahmar Mövsümovla müsahibə

**- Dövlət Neft Fondunun yaradılmasının 15 ili tamam oldu. Fondun ötən dövr ərzindəki fəaliyyətini necə qiymətləndirirsiniz? Hansı nailiyyətlər əldə olundu və perspektivdə hansı hədəflər nəzərdə tutulub?**

- Yarandığı vaxtdan etibarən neft-qaz ehtiyatlarının istismarı və satışından əldə olunmuş gəlirlərin yığılması Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) strateji məqsədi və həyata keçirdiyi əsas vəzifələrindən biridir. Fəaliyyət göstərdiyi dövr ərzində beynəlxalq səviyyədə tanınmış təşkilata çevrilmiş Azərbaycan Respublikası Dövlət Neft Fondu Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş milli neft strategiyasının uğurlu nəticəsidir. Hazırda ARDNF institusional cəhətdən formalaşmaqla bərabər ölkə daxilində və eləcə də beynəlxalq səviyyədə tanınmış və vəsaitlərin idarə edilməsi, şəffaflığın təmin olunması baxımından digər dövlətlərlə öz təcrübəsini bölüşdürməyə qadir, müasir standartlara cavab verən beynəlxalq səviyyəli maliyyə təşkilatına çevrilmişdir və bütün bu nailiyyətlərin başlanğıcında məhz Ulu öndər Heydər Əliyevin ARDNF-in yaradılması ilə bağlı qərarı durur.

15 il müddətində ARDNF vəsaitlərin yerləşdirilməsi və idarəedilməsi üzrə qarşısına qoyduğu məqsədi effektiv həyata keçirə bilən çox yüksək səviyyəli maliyyə təşkilatına çevrilmişdir. Bu dövr ərzində fond öhdəliyinə götürdüyü layihələrin maliyyələşdirilməsini uğurla həyata keçirmişdir: layihələrdən bəziləri artıq tamamlanmış, digərləri isə davam etməkdədir.

Ötən dövr ərzində ARDNF Azərbaycanın beynəlxalq arenada nüfuzunu artıran nailiyyətlər əldə etmişdir. Fond fəaliyyətə başladığı ilk gündən etibarən şəffaflığın təmin edilməsinə xüsusi önəm vermişdir. Nailiyyətlər sırasında ARDNF-in "Dövlət xidmətində şəffaflığın, cavabdehliyin və məsuliyyətin artırılması" üzrə 2007-ci il üçün "BMT-nin Dövlət Qulluğu Mükafatı"na (UN Public Service Award) layiq görülməsi xüsusi yer tutur. Fondun fəal iştirak etdiyi Mədən Hasilatı üzrə Şəffaflıq Təşəbbüsünün (MHŞT) uğurlu tətbiqi nəticəsində Azərbaycana MHŞT-nin tamhüquqlu üzvü statusu verilmiş, "2009-cu il MHŞT mükafatı" təqdim edilmişdir.




**- Dünyada, məsələn, Qətər, Küveyt, Norveç, Rusiya, Qazaxıstan kimi ölkələrdə təbii sərvətlərdən əldə edilən gəlir hesabına formalaşan təxminən 25-dən çox oxşar dövlət maliyyə fondları fəaliyyət göstərir. Bizim Dövlət Neft Fondunun digərlərindən fərqli spesifik xüsusiyyətləri hansılardır?**

- Neft və qazın bərpa edilməyən təbii ehtiyat olduğunu nəzərə alaraq onların satışından əldə edilən gəlirin indiki və gələcək nəsillər arasında bərabər bölüşdürülməsi məqsədilə Dövlət Neft Fondu yaradıldı. Neft ilə zəngin olan ölkələrdə müstəqil sərvət fondlarının və yaxud digər bu kimi qurumların təsis edilməsi bu dövlətlərdə neft sərvətlərinin nəsillər arasında bərabər bölgüsünə, onların səmərəli və məqsədyönlü şəkildə idarə edilməsinə şərait yaradır.

Hazırda Dövlət Neft Fondu bu vəzifəni uğurla həyata keçirir və fondun aktivləri ildən-ilə artır. 2015-ci il aprelin 1-nə olan məlumata əsasən, fondun aktivləri 35 mlrd. ABŞ dolları təşkil edir.

ARDNF maliyyə vəsaitlərini ölkədən kənarda xarici maliyyə aktivlərində, qiymətli kağızlarda yerləşdirməklə bərabər vəsaitlərin az bir qisminin idarə edilməsini xarici menecerlərə həvalə edərək valyutanın daxili bazara neqativ təsirini neytrallaşdırır, manatın kursuna təsiri azaldır. Ölkəyə daxil olan valyuta axınının artmasını nəzərə alaraq ARDNF-in xarici valyutanın sterilizə edilməsində və bununla da makroiqtisadi sabitliyin təmin olunmasında rolu mühümdür. Bununla əlaqədar makroiqtisadi siyasət müəyyən edilərkən fondun valyuta vəsaitlərinin makroiqtisadi sabitliyə təsiri də nəzərə alınır.

İqtisadiyyatının əsas hissəsi neftə əsaslanan bir sıra dünya dövlət-




lərində ARDNF ilə bir çox oxşar cəhətləri olan analoji fondlar fəaliyyət göstərir. ARDNF yaradılarkən bu fondların təcrübəsinə istinad etməklə yanaşı, yerli xüsusiyyətlər və mövcud ehtiyaclar nəzərə alınmış, neft gəlirlərinin gələcək nəsillər üçün toplanması ilə bərabər bugünkü nəsillərin problemlərinin həlli üçün də istifadə edilməsini nəzərdə tutan bir model seçilmişdir.

Azərbaycanda Dövlət Neft Fondunun fərqləndirici xüsusiyyətlərindən biri də onun Azərbaycan Mərkəzi Bankında xüsusi hesab formasında deyil, ayrıca idarəetmə strukturuna malik hüquqi şəxs qismində yaradılmasıdır.

**- Dövlət Neft Fondunun gələcək perspektivlərini nədə görürsünüz? Dəyişən dünya iqtisadiyyatının müasir tendensiyalarını nəzərə alsaq, fondun siyasətində və strukturunda dəyişikliklər aparmağa lüzum varmı?**

- ARDNF təsis edilərkən vəsaitlərinin həcmi 270 mln. ABŞ dolları təşkil edirdi. 2008-ci ildə bu vəsait 10 mlrd. ABŞ dolları, 2010-cu ildə 20 mlrd. ABŞ dolları, 2015-ci ilin ilk rübünün sonunda isə 35 mlrd. ABŞ dolları təşkil etmişdir. Dövlət Neft Fondunun əsas vəzifələrindən biri neft və qazın satışından gələn gəlirlərin nəsillər arasında bərabər şəkildə bölüşdürülməsi və gələcək nəsillər üçün ehtiyat vəsait kimi toplanması olduğuna görə fond konservativ investisiya siyasəti həyata keçirir. Lakin dəyişən şərait gələcəkdə investisiya siyasətinin daha aqressiv formasına keçidi tələb edə bilər.

ARDNF institusional cəhətdən yüksək şəkildə inkişaf etmişdir. Fondda maliyyə əməliyyatları sahəsindəki bütün müasir texnologiyalardan istifadə edilir. Təbii ki, maliyyə vəsaitlərinin artması bu vəsaitləri düzgün və ən son texnologiyalardan istifadə etməklə idarə edə bilən kadrlara olan tələbatı da yüksəldir. Bu məqsədlə fond əməkdaşlarının çoxsaylı treninqlərdə, tədris seminarlarında və kurslarda iştirakını təmin edir, onların vəsaitlərin idarə edilməsi sahəsində ən son yeniliklərlə tanış olmalarına şərait yaradır. Bununla belə ARDNF əldə edilmiş nailiyyətlərlə kifayətlənmir, həm özünün funksional inkişafına, həm də kadrlarının inkişafına çalışır.

**- Dünya bazarında neftin qiymətinin aşağı düşməsinin təsirinin azaldılması üçün fond nə kimi tədbirlər həyata keçirir? Neft qiymətlərinin dəyişkənliyini və mövcud vəziyyətini nəzərə alaraq dövlət büdcəsinin parametrlərinə yenidən baxılması mümkündürmü?**

- Fondun büdcəsinin baza göstəricisi olan xam neftin qiyməti dövlət büdcəsi ilə eyni, yəni 90 ABŞ dolları səviyyəsində təsdiq edilmişdir, lakin dünya bazarlarında xam neftin qiymətlərində aşağı dinamikanın müşahidə olunduğunu nəzərə alaraq, 2015-ci ildə fondun mənfəət neftinin və qazın satışından gəlirlərinin aşağı düşməsi



proqnozlaşdırılır. Xam neftin qiymətlərinin aşağı düşməsi fondun gəlirlərinə və eləcə də dövlət büdcəsinin ayrı-ayrı gəlir mənbələrinə öz mənfi təsirini göstərməkdədir. Bütün bunlara baxmayaraq, ARDNF tərəfindən ölkədə fiskal sabitliyin təmin edilməsi məqsədilə büdcə ilə təsdiq edilmiş öhdəliklər, o cümlədən dövlət büdcəsinə transfert ilə bağlı xərclərin icrası təmin ediləcəkdir, fondun büdcəsində nəzərdə tutulmuş strateji və sosial layihələrin maliyyələşdirilməsi davam etdiriləcəkdir.

**- ARDNF dünyada nə kimi sərmayələr həyata keçirir və dünyanın maliyyə qurumları ilə əməkdaşlığı necə inkişaf edir?**

- Hazırda ARDNF dünyanın 47 ölkəsində investisiya qoyuluşu həyata keçirir, həmçinin tərəfdaş qismində dünyanın əksər aparıcı investisiya bankları ilə əməkdaşlıq edir. Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Beynəlxalq Maliyyə Korporasiyası (BMK) kimi beynəlxalq maliyyə institutları ilə yüksək səviyyəli əməkdaşlıq qurulub. Beynəlxalq Maliyyə Korporasiyası ilə fondun əməkdaşlığı BMK-nın Aktivlərin İdarə Olunması Şirkəti tərəfindən təşkil olunan özəl səhm fondlarında investor qismində iştirak etməsi ilə səciyyələnir. ARDNF BMK-nın aşağıda göstərilən fondlarında investor qismində iştirak edir:

- *BMK Afrika, Latın Amerikası və Karib Hövzəsi Fondu;*
- *BMK Katalizator Fondu;*
- *BMK Qlobal İnfrastruktur Fondu.*

ARDNF ABŞ, Avropa, Asiya, Latın Amerikası və s. regionlara investisiya yatırımını həyata keçirir.

Bildiyiniz kimi, ARDNF Rusiya, Fransa, İngiltərə, Cənubi Koreya kimi ölkələrdə daşınmaz əmlaka sərmayə yatırmışdır və bu istiqamətdə işlər davam etdirilir. Bundan başqa ARDNF investisiya portfelinə yeni bir valyutanı - Çin yuanını əlavə etmək niyyətindədir və bununla bağlı Çinin müvafiq qurumları ilə danışıqlar aparılmış və uğurlu nəticələr əldə olunmuşdur.

